## Rasim Balayev

Bu foto 1981-ci ildə dünyanın ən böyük və nüfuzlu kino nəşrlərindən birinin - «Sovetskiy ekran» jurnalının üz qabığında çap olunmuşdu. Şəkildə gördüyünüz görkəmli aktyor, respublikamızın Xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı Rasim Balayev o vaxt artıq bir kino aktyoru kimi SSRİ-də kifayət qədər məşhur idi. Bu gün görkəmli sənətkarımızın ad günüdür. O, 8 avqust 1948-ci ildə Ağsu rayonunda anadan olmuşdur. Yüksək vəzifəli məmur ailəsində dünyaya göz açan Rasim Balayevin aktyorluq sənətini seçməsində, heç şübhəsiz, o vaxt Ağsu rayonunda yaranmış ictimai və mədəni mühitin ciddi təsiri olmuşdur. Azərbaycanın görkəmli aktyorları Səməndər Rzayev və Mikayıl Mirzə də məhz həmin mühitin yetirmələri idilər.

Rasim Balayev 1969-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmiş, ilk dəfə Bakı kinostudiyasında «Ulduzlar sönmür» əsərində kiçik bir rolda çəkilmişdir. Gənc ikən oynadığı «Nəsimi», «Babək» və «Dədə Qorqud» filmlərindəki rollar ilə Azərbaycan tamaşaçılarının böyük sevgisini qazanmışdır. Aktyorluq karyerası boyunca 160-dan çox rolda çəkilmiş Rasim Balayevin, heç şübhəsiz, bir aktyor kimi taleyinin müəyyənləşməsində Həsən Seyidbəylinin İsa Hüseynovun ssenarisi əsasında çəkdiyi «Nəsimi» filminin böyük təsiri oldu. «Bəzən soruşurlar ki, oynadığınız rollardan hansı sizə daha əzizdir, deyirəm ki, rolların hamısı əzizdir, onları yaşamışam, pis-yaxşı nəyə nail olub-olmamışam, o, başqa şeydir. Epizodik rola da ciddi yanaşmışam, çünki o da bir insandır və onun da taleyini oynamaq lazımdır. Amma Nəsimi mənim üçün bir vəsiqə verib, yaşıl işıq yandırıb. Yaxşı yadımdadır ki, «Nəsimi» filmindən sonra mən SSRİ məkanında sınaq çəkilişləri olmadan çoxlu rola dəvət aldım. Deyirdilər ki, bizdə filan əsər var, təsdiqlənmisiniz, xahiş edirik ki, gəlin. Düzü, mən həmişə ciddi yanaşırdım, deyirdim ki, ssenari ilə tanış olmalıyam, bilməliyəm ki, kimi oynayıram...» - Rasim Balayev son vaxtlar verdiyi müsahibələrindən birində demişdir.

Rasim Balayev indi öz ömrünün və yaradıcılığının müdriklik dövrünü yaşayır. Görkəmli sənətkarımızın ad gününü təbrik edir, ona cansağlığı, böyük sənət uğurları arzulayırıq.